# Vaqif Aslan haqqında deyilənlər və yazılanlar

Vaqifin fərdi psixi xüsusiyyətlərinin izlərini onun şeirlərində də aydın görmək olur. Vaqifin şeirləri hərarətlidir. Bu şeirlərdə bəzən hisslər pərişanlığı, bəzən dəlisov bir məhəbbət, bəzən də ürkək bir bədii cürət duyulmaqdadır. Şair olmaq istəyən şəxs şeir mövzusunun sahə çərçivəsini vurub dağıtmalı, duyğular dünyasının əsrarəngiz ormanlarından rəngarəng çiçəklər toplamağı bacarmalıdır. Bu ormanlarda çalışmaq üçün hisslər köhlənini idrakın kompasına tabe etmək də əsas şərtdir. Vaqifə belə şair olmağı arzu edirəm.

**ALLAHVERDİ TAĞIZADƏ**
**"Bilik" qəzeti; 1972-ci il.**

***

Səmimiyyət onun şeirlərində nəzər-diqqəti cəlb edən əsas xüsusiyyətdir. Toxunduğu mövzudan asılı olmayaraq, onun yazıları dağ çeşməsi kimi saf, uşaq gülüşü qədər səmimidir... Vaqifin şeirlərinin mərkəzində həmişə insan, onun hiss və həyəcanları durur... Onun addımları uğurludur. Belə başlanğıc isə Pifaqor demişkən, "bütövün yarısına bərabərdir". Sənə uğurlar arzulayırıq, qələm dostumuz!

**Aydın Məmmədov,**
**"Şəki fəhləsi" qəzeti,**
**9 oktyabr 1976-cı il.**

***

Bu gün Azərbaycan ictimaiyyəti və bütövlükdə Türk dünyası Bəxtiyar Vahabzadənin yoxluğunu dərin ağrılarla hiss edir. Biz bunu Bakıda daha çox duyuruq. Ay şəkililər siz nəyin dərdini çəkirsiniz, sizin böyük şair Vaqif Aslanınız var.

Akademik, Millət vəkili Nizami Cəfərov. 31 Avqust 2018-ci il Şəkidə Bəxtiyar Vahabzadənin ev muzeyinin açılışındakı nitqindən.

***

Bu dərdi çığırmaq da olar, beləcə həzin-həzin də demək olar:"Gecə-gündüz qaçırıq.Yurd qaçır, biz qaçırıq. Yenə də çatammırıq. Getdi gedən yerimiz. Ölüb-itən yerimiz. İtib-bitən yerimiz. Göydən asılı qaldıq. Qəbri qazılı qaldıq, Haray, Vətən yerimiz! (Vaqif Aslan). Bu da bir ifadə formasıdır - gözəl formadır.

**Tofiq Hacıyev, akademik, Prof. Dr.,**
**"YENİ ƏDƏBİYYAT YARANIR"**
**(Yeddinci məqalə)**
**"Xalq" qəzeti, 18 aprel 1992-ci il.**

***

Musa Ələkbərli, Vaqif Aslan və Fərhad Vəlizadə kimi istedadlar sübut edir ki, ənənəvi poetik formalarda da yeni söz demək mümkündür.

**Rasim Nəbioğlu.**
**"Azərbaycan" jurnalı, №5, 1998-ci il.**

***

...Fərdi duyğular aləminin bütünlüklə əcdadla bağlı olması, məncə, Vaqif Aslan şeirlərinin ən güclü və önəmli tərəfidir... Yaddaşa, tarixə, əcdada qayıdış başqa şairlərdə də vardır. Bu, çağdaş şeirin meylidir, qanunauyğunluqdur. V.Aslanın şeirlərində başqa bir məziyyət də vardır ki, bu da yaddaşa, tarixə qayıdışın, poetik baxışın genişliyidir... V.Aslanın şeirlərində müasir milli problemlərimizə, milli dərdlərimizə fərdi şair münasibətini gördüm. Məsələn,"Kişilər" şeirini götürək. Bu, qəhrəman əcdadlarımız haqqında yazılmışdır. Lakin əcdad mövzusunu çağdaş əhvali-ruhiyyə və psixologiyamızla çox məharətlə əlaqələndirib, - milli itkilərimizin ağrısını ifadə edir.

**Prof.Dr. Şamil Salmanov**
**"Ədəbiyyat" qəzeti 17 iyul 1998-ci il**

***

Vaqif Aslanın növbəti kitabını vərəqləyirəm ... Vaqifə uğurlar arzulayırıq, "yeni kitabın mübarək" deyirik və israrla tutduğu şeir yolunda təkrarsız duyğular və o duyğuları itkisiz filansız kağızda göyərtmək qisməti arzulayırıq.

**Əli Məcid. "Zaman" qəzeti**
**26 iyun-3 iyul,1999-cu il.**

***

Tanınmış şair-alim... Vaqif Aslan Azərbaycan ərazisində ən qədim və geniş miqyasda türk-folklor mənəviyyatının məişətdə həqiqətən yaşanmış bir tarixi gerçəklik olduğunun sənədli izlərini məhz Şəkinin şifahi yaddaş qatlarında,Şəki folklor arealının sənət və dil materialında axtarır.

**Yaşar Qarayev,**
**AMEA-nın müxbir üzvü, Prof.Dr..**
**Prototip - Şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs-Şəki şivəs... Azərbaycan folkloru, IV kitab, Şəki folkloru, I cildə ön sözdən. Bakı, "Səda", 2000.**

***

Müasir Azərbaycan poeziyasında "Dədə Qorqud" motivləri şair Vaqif Aslanın yaradıcılığında mühüm yer tutur... "Oğuz bəyləri və xatunlarına Vaqif Aslan salamı" şeirində... "oğuz" melodikası insanı elə sehirləyir ki, bəzən müasir şairin şeirini oxuduğunu unudursan: sanki bunlar Vaqif Aslanın yox, naməlum bir oğuz ozanının şeiridir.

**Prof.Dr. Yeganə İsmayılova.**
**"Dədə Qorqud kitabı" və müasir Azərbaycan ədəbi düşüncəsi"**
**(Bakı, "Elm", 2011) kitabından.**

***

Vaqif Aslan poeziyasının folklorla kontominasiyası əslində bu ədəbi materiallar və bu tipli materiallarda aparıcı tendensiyanı təşkil edən "kvazifolklor hadisəsi"ni (termin ilk dəfə işlədilir)sistemləşdirməyi tələb edir. V.Aslanın poetik düşüncəsin-də əski şeir və xalq mahnıları (ümumiyyətlə, folklor) çağdaş davamını tapır, Tanrı-insan, insan-təbiət və dünya münasibətlərində semantik təkamüldən keçir

**Prof.Dr. Hüseyn İsmayılov. Çağdaş türkün poetik dünyası.Vaqif Aslanın "Qanımdan rəng alan gül" (Bakı, "Ağrıdağ", 2002) kitabına ön sözdən.**

***

Vaqif Aslanın şair xoşbəxtliyi ondadır ki, onun həyatı, ömürü-günü canlı folklorun, şirinşəkər ləhcənin içindədir, onun bir hissəsidir. Şəki ləhcəsinin yaratdığı magik çevrədən kənara çıxa bilmir. Dil oyunları, söz oynatmaları, ləhcənin zarafat-kinayə enerjisi V.Aslan lirikasına ayrı bir rəng, ayrı bir dad verir.

... Vaqif Aslanın şeirlərini dinləyəndə onun əllərinin jestini, üzünün mimikasını təsəvvür etmək olar. İçindən doğulub axan söz üzdə naxışlara -qırışlara çevrilir. Bu qırışlardan artıq sözün özünü də oxumaq və görmək olar...

Vaqif Aslan şəkili olmağın və Şəkidə şair olmağın (Bəxtiyar Vahabzadədən sonra) çətinliyini çoxdan başa düşübdür və bu zülmə, ağırlığa və çətinliyə ləyaqətlə dözür.

**Prof.Dr. Rüstəm Kamal. Nəfəs və söz halallığı. Vaqif Aslanın "Qanımdan rəng alan gül" (Bakı, "Ağrıdağ", 2002) kitabına ön sözdən.**

***

Vaqif Aslanın bütövlükdə ədəbi- bədii yaradıcılığı dünənimizlə bu günümüz, qədim və zəngin keçmişimizlə fikir, düşüncə plüralizminin intişar tapdığı çağdaş zəmanəmiz arasında məntiqi əsasalara dayalı, milli- mənəvi və bədii- estetik ornamentlərlə süslənmiş körpüyə bənzətmək olar. Misralarında tarixin nəhri çırpınan, nəbzi döyünən şeirlərinin mayasında, nüvəsində sirli-sehrli suallar, müəmmalar yuvalanmış, zamanın dumanına bürünmüş örtülü mətləblərin ecazkar cazibəsi dünənimizə boylanmağa, keçmişimizdən gələn səsləri dinləməyə vadar edir... Vaqif Aslanın poeziyası səmimi hisslər, saf duyğular poeziyasıdır.

**Prof.Dr. Asif Rüstəmli "525-ci qəzet" 5 sentyabr 2013-ci il.**

***

Vaqif Aslan Azərbaycan və Şəki ədəbi mühitində özünəməxsus yeri olan istedadlı şair, gözəl insandır. Onun yaradıcılığı mükəmməl qaynaqlara söykənir və yaratdığı əsərlər bədii irsimizin zənginləşməsində mühüm rol oynayır.

**Zərinə Cavadova.**
**Tarix üzrə fəlsəfə doktoru.**

***

Vaqif Aslanın "Hüseyn xan Müştaq"... əsərində tarixi həqiqətlərə sədaqət prinsipi ilə ədəbi-bədii-düşüncə və təsəvvür sinkretik şəkildə təzahür etmiş... dilin poetizmi ilə düşüncənin kademizmi birləşmişdir.

**Prof.Dr. Kərim Şükürov.**
**Vaqif Aslanın "Hüseyn xan Müştaq" (Bakı, "Orxan" NPM, 2015) kitabına ön sözdən.**

***

Azerbaycan Türklerinden Yazar Vaqif ASLAN'ın, son eseri, "Hüseyn Han Müştak" adlı tiyatro eserini bir yazıyla tanıttı. Yazısında, "Türk tarihi ve edebiyatının yalnız Türkiye Türklerinin tarih ve edebiyatı olmadığını" vurgulamakta; Azerbaycan'da hanlıklar dönemi ve Hüseyn Han'ın 22 yıl han olarak Şeki bölgesini idare ettiği yıllarda yaşananlar anlatılmaktadır. Türkiye'deki beylikler dönemine benzeyen 18. asırdaki Azerbaycan'ı tanımak için bu eserin okunması; ayrıca kitabın aktarılarak Türkiye'de de yayımlanması gerektiği üzerinde durmaktadır.

**Hasan Kallimci,Türkiye, Denizli.**

***

Türkiyənin Dənizli "Xocalı Çalışma Qrupu " Xocalı soyqırımının 25-ci illiyini anma tədbirində keçirdiyi tədbirdə Unuversitetin 500 nəfər tutan böyük zalında ... iki şagird səhnəyə çıxdı. Azərbaycan bayrağına bürünmüş qız Şəkidə yaşayan görkəmli ədib Vaqif Aslanın, Türkiyə bayrağına bürünmüş ikinci qız isə romançı Həsən Kallimçinin bir-birinə yazdıqları türk dünyası ilə bağlı həsrət və düşüncələrini ifadə edən iki şeiri oxudular.

Hörmətli Vaqif bəy!

Mərkəzi şəhərlərdə - böyük kitabxana və arxivlərin əl altında bulunduğu, ziyalı mühitinin çox geniş olduğu yerdə məşhur yazıçı, yaxud alim kimi yetişmək nə qədər asandırsa əyalətdə buna nail olmaq üçün insandan fövqəladə istedad və iradə tələb olunur. Siz özünüzün ümummilli əhəmiyyət daşıyan həm bədii, həm də elmi yaradıcılığınızla sübut etdiniz ki, paytaxtdan çox-çox uzaqda yaşayıb-yaratmaqla da bütün xalqın sevgi və ehtiramını qazanan ziyalı kimi özünü təsdiqlətmək mümkündür. Sizin kimi nadir istedadlar əslində əyalətdə də paytaxtda mğvcud olduğu səviyyədəki yüksək ziyalı mühiti yaradırlar (ən azından, bu, doğma Şəkimizdə belədir!).

Sizin kimi dəyərli bir ziyalı ilə dost olmağımla fəxr etdiyimi qürurla bildirərək bu şanlı və şərəfli ad gününüzdə Sizi ürəkdən təbrik edir. Sizə ürəyinizin istədiyi qədər uzun ömür, bitməz-tükənməz yaradıcılıq sevincləri arzulayıram!

**Ədalət TAHİRZADƏ**
**Bakı Avrasiya Universitetinin professoru**

***

Azerbaycan Türklerinden Yazar Vaqif ASLAN'ın, son eseri, "Hüseyn Han Müştak" adlı tiyatro eserini bir yazıyla tanıttı. Yazısında, "Türk tarihi ve edebiyatının yalnız Türkiye Türklerinin tarih ve edebiyatı olmadığını" vurgulamakta; Azerbaycan'da hanlıklar dönemi ve Hüseyn Han'ın 22 yıl han olarak Şeki bölgesini idare ettiği yıllarda yaşananlar anlatılmaktadır. Türkiye'deki beylikler dönemine benzeyen 18. asırdaki Azerbaycan'ı tanımak için bu eserin okunması; ayrıca kitabın aktarılarak Türkiye'de



de yayımlanması gerektiği üzerinde durmaktadır. Vaqif ASLAN'ın "Hüseyn Han Müştak" adlı eseri, Azerbaycan edebiyatında yerini almıştır. Türk edebiyatında da yer etmesi için; başta Türkiye Türkçesi olmak üzere diğer Türk lehçelerinde ve ülkelerinde de yayımlanması, okunması ve değerlendirilme yazılarının kaleme alınması sayesinde olacaktır. Bu; "Bir millet yedi devlet ve pek çok özerk devlet ve topluluk" olmanın gereği olarak yaşayan Türk aydınlarının görevidir.

Çünkü Türk Edebiyatı sadece Türkiye Türklerinin edebiyatı değildir. Çünkü Türk tarihi, sadece Türkiye Türklerinin tarihi değildir. Azerbaycan'ın hanlıklar dönemi bizim beylikler dönemine bazı bakımlardan benzemektedir. Söğüt Beyliği beylikleri derleyip toplamış; Osmanlı devleti kurulmuştur fakat Azerbaycan'da birlik sağlanamamış, hanlıklar birer birer Rusya tarafından yutulmuştur.

**Hasan KALLİMCİ. Şair, araşdırmaçı.**
**Türkiyə, Dənizli.**
**www.hasankallimci.com**

***

Vaqif Aslan ədəbiyyatımıza nəfəs verən şairlərimizdəndir.

Vaqif Aslana görə Nuh Tufanından da qorxulu bir tufan başlayıb: Ruh tufanı!

Bu fəlakətdən qurtulmaq olacaqmı?!

V.Aslanı oxuyanda adam tariximizi daha yaxşı öyrənir, fəlsəfənin təzə qatlarına baş vura bilir. V.Aslan birmənalı şəkildə mütəfəkkir şairdir. O, həm yurdumuzun, həm də ruhumuzun bütöv ərazisidir. Türk oğlu türkdür. Araz bir qoludur, Kür bir qoludur. Onun söz səngərinə yatmış əsgər kimi daima zəfər, qələbə gözləyir. Yalnız şair deyil, alimdir, filosofdur, dramaturqdur, tədqiqatçı-araşdırıcıdır.

Bu adam danışanda da, şeir yazanda da hayqırır! Yalnız şəkili, bakılı, qazaxlı deyil, orxunludur!

Yeniseylidir!

Ötügenlidir!

Metenin (Oğuz xanın) silahdaşıdır. Az qala inanmaq istəyirsən ki, Əhməd Yəsəvi kimi Durna cildinə, Hacı Bektaş Vəli kimi göyərçin donuna, Misgin Abdal kimi maral qiyafəsinə girə bilər...

Şamanlar kimi düz olmağa, düz yaşamağa and içib! Şəkidə yaşamağına baxmayaraq!

Dünyanın hər yerində dünyada olmamışdan var!

Ruh şəklində!

Eşq şəklində!

**Barat VÜSAL**
**AYB Qazax bölməsinin sədri.**
**"Şaman andı"məqaləsindən.**
**525-ci qəzet. 3 mart 2020-ci il.**

***

Vaqif Aslan, həqiqətən, dərin mənaların vaqifi, böyük mətləblərin aslanıdır. Allah onu qorusun!

**Oktay İsmayilli (Ferzeliyev).**
**Oxucu.**

***

Vaqif Aslan gözəl insan, istedadlı şair olmaqla bərabər, həm də yorulmaz tədqiqatçıdır. Mən Vaqif Aslanın demək olar ki, bütün yaradıcılığını diqqətlə oxumuşam. Çox maraqlı, özünəməxsus yaradıcı şəxsiyyətdir.

Vaqif Aslan gözəl insan, istedadlı şair olmaqla bərabər, həm də yorulmaz tədqiqatçıdır. Mən Vaqif Aslanın demək olar ki, bütün yaradıcılığını diqqətlə oxumuşam. Çox maraqlı, özünəməxsus yaradıcı şəxsiyyətdir.

**Mahir Cavadlı, Şair**

***

Bu dünya ağ varaq imiş Yazıldıqca söz yeri var" - bu misralar Vaqif Aslanındır. Müasir poeziyamızda onun da özünəməxsus fərdi üslubu, deyim tərzi var və Şəkidə yaşamasına baxmayaraq şeirləri ilə yaşadığı regionun sərhədlərini aşa bilib. Vaqif Aslanın şeirlərinin özünəməxsus "xəritəsi" var. Bu xəritə müxtəlif rənglərlə işarələnmiş hissləri, duyğuları əhatə edir.

**Prof.Dr. Vaqif Yusifli**

***

Əvvələr qeyd etdiyim kimi, şeirləri də özünə bənzəyir və o çox nadir şairlərdəndir ki, şəxsiyyəti ilə yaradıcılığı vəhdət təşkil edir. Mən bir də ona görə təəccübləndim və mütəəssir oldum ki, Vaqif müəllim Vaqif Aslan yaradıcılığını elə təhlil edib ki, elə bil o zaman bizimlə "Cığır" dərnəyində iştirak edib, Vaqifin ilk şeirlərinin dinləyicisi olub.

... O, çılğın təbiətli bir gənc idi... İlhamla yoğrulmuş misraları onu dinləyənləri ovsunlayırdı..... Öz nəfəsi, öz yazı üslubu vardı. Hamı onun gələcəkdə böyük şair olacağına inanırdı, o cümlədən mən də.

**Etibar Etibarlı.**
**Şair, publisist.**

***

Etibar müəllim , sağ olun ki , bu yazını oxumaq şərəfinə nail olduq !Böyük şairimiz Vaqif Aslana uzun ömür və can sağlığı, müvəffəqiyyətlər arzulayıram! Tələbəlik illərində "Bilik" qəzetində çap olunan hər şeirini acgözlüklə oxuyardıq .

**Mürfəttar Seyidməmmədov.**
**Oxucu**

Əziz Vaqif! Sənin ulu və mükəmməl sənətindən zövq alıram! Yaşa, var ol!

Vaqif, şeirlərin dahiyanə şeirlərdir. Hər biri şedevrdir! Eşq olsun sənə!

**Prof. Dr. Ramiz Əskər**

***

Vaqif bəy, uğur olsun. Sevinirəm ki, şeirlərinizi Təbrizdə, Urmiyada da həvəslə oxuyanların sayı gündən- günə artır.

**Əli Şamil. Folklorşünas.**

***

... Vaqif, ölümü ilə Şəkiyə, Kiş kəndinə şöhrət gətirən dostunun-Aydının başdaşı ilə danışa bilir ... Oxuduğum bu yanıqlı dost sözü məni də Aydın haqda düşünməyə vadar elədi.

**İsa İsmayılzadə. "Yeni fikir" qəzeti**
**18 aprel,1992-ci il**

***

Vaqif Aslanın "Ruhlarla söhbət" poeması milli tərəqqi üçün başlıca şərt olan milli şüurun inkişaf prosesinə müstəsna təsir göstərməyə qabil olan bir əsər kimi olduqca qiymətlidir.

**Həbibillah Manaflı**
**"Şəki" qəzeti, 24 aprel 1998-ci il**

***

Bu yaxınlarda şair Vaqif Aslanın "Ruhlarla söhbət" kitabı çapdan çıxıb. Şair poemanı yazmaq üçün böyük, hərtərəfli hazırlıq görüb. Tariximizi o baş-bu başa vərəqləyib... Əsərdə ən mühüm tarixi hadisələrə öz münasibətini bildirib. Bu münasibəti oxuculara poeziya dili ilə çatdırmaq böyük yaradıcılıq hünəri tələb eləyir.

**Teymur Xəlilov**
**AYB Şəki bölməsinin sədri**
**"Şəkinin səsi"qəzeti 2 fevral 1998-ci il**

***

Müəllim, şair, yazıçı, dramaturq, tərcüməçi, publisist, tədqiqatçı alim, tarixçi, yüksək eimi həm də insani keyfiyyətləri ilə tanınan Vaqif Aslana yaşadığəmız müasir dövrdə elitar səviyyəsi olan ziyalılar, səmimi insanlar, milli mənəvi dəyərlərimizi qiymətləndirməyi bacaran kamil şəxsiyyətlər, şeir sevən söz sərrafları daha çox rəğbət bəsləyirlər. Ona görə ki, zirvələrdən zirvələr daha yaxşı, aydın görünür və Vaqif Aslan bu keyfiyyətlərinə görə sevilir.

Mən uzun illər onunla dostluq münasibətində olan bir insan kimi şahidi olmuşam ki, Vaqif Aslanı ziyalı qadınlar daha çox sevirlər. Bunun səbəbini isə onunla həmsöhbət olan qadınlardan öyrənmişəm. Onların dediklərinə görə qadınlar sevgi məsələlərində daha səlist, etibarlı və təmənnasız olurlar. Onlar Vaqif Aslanda əsil kişi qeyrətinin, kişi əxlaqının, kişi kamilliyinin və bir çox kişilik normalarının toplusunu görürlər və ona özlərinin ideal sevgilərinin prototipi kimi baxırlar. Vaqif Aslan həqiyqətən ideal bir insandır, böyük şəxsiyyətdir!

**Çingiz Ənvəroğlu Nağıyev.**
**Jurnalist. Qızıl qələm, mükafatı laureatı.**

***

Vaqif müəllim, hər şeirinizin mənası bir dünyadır . "Yazmışam" adlı seiriniz necə gözəlmis. Bir gözün bu qədər İlham verəcəyini bilməzdim . Xoş o göz sahibinin halına.

**İlahə Məmmədova,**
**Oxucu**

***

Vaqif Aslan mənim üçün sözü və özü dupduru olan bulaqdı. İçirsən doymursan, ləzzət alırsan... Və o bulağın özünü, zümzüməsini, bir sözlə bütövlüyünü yaddaşına köçürürsən. Deməli, onu özündə yaşadırsan, özün də onda yaşayırsan.

**Əbülfət Mədətoğlu,**
**Əməkdar jurnalist, şair-publisist**